Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi

**Azərbaycan cəmiyyətinin inkişafına öz töhfəsini verən milli mətbuat tarix boyu maariflənmədə, milli düşüncəsinin formalaşmasında mühüm rol oynayıb.**

Ötən əsrin sonlarında Azərbaycanı müstəqilliyə aparan yolda da mətbuat fəal iştirak edib, dövlət müstəqilliyini bərpa etdikdən sonra isə demokratik cəmiyyətin tərkib hissəsi kimi inkişaf yolu keçib. Ümummilli lider Heydər Əliyevin Fərmanı əsasında 1998-ci il avqustun 6-da senzuranın ləğvi isə milli mətbuatın inkişafında yeni mərhələnin əsasını qoyub.

Mətbuat sahəsində yaradılmış ənənələri daha da möhkəmləndirən Prezident İlham Əliyevin xüsusi diqqəti və qayğısı nəticəsində isə kütləvi informasiya vasitələrinin fəaliyyətində dövrün çağırışlarından irəli gələn yeni keyfiyyət mərhələsi başladı. Bu dövr ərzində Azərbaycan mediası özünəməxsus inkişaf yolu keçib, ölkəmizdə və dünyada baş verən hadisələrlə bağlı cəmiyyətin məlumatlandırılması, xalqımızın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü fəaliyyət göstərib.

Vətən müharibəsindən sonra ölkəmizdə dövlət-cəmiyyət, dövlət-media, media-cəmiyyət münasibətlərində də yaranmış yeni reallıqlar bu sahənin qanunvericilik bazasının yenilənməsinə də böyük tələbat yaratmışdı. Azərbaycanda 1999-cu ildə qəbul olunmuş və hazırda qüvvədə olan "Kütləvi informasiya vasitələri haqqında" qanun bugünə kimi 79 dəfə dəyişdirilib və müasir çağırışlarla uzlaşmır.

Ölkə başçısı İlham Əliyevin 2021-ci ilin əvvəlində "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" imzaladığı fərmanla Prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun bazasında media sahəsində əsaslı inkişafa nail olunmasına dəstək olacaq, media subyektlərinin bütün sahələrini əhatə edəcək yeni qurum - Medianın İnkişafı Agentliyi yaradıldı (MEDİA). Agentlik fəaliyyətə başladıqdan sonra isə Azərbaycan Prezidentinin müvafiq fərmanı ilə verilmiş tapşırığa əsasən "Media haqqında" yeni qanun layihəsi üzərində hazırlıq işləri aparılıb. Hərtərəfli əsaslandırma nəticəsində hazırlanan yeni qanun layihəsi artıq geniş müzakirələr üçün təqdim olunub.

# Yeni media qanunu informasiya-kommunikasiya texnologiyalarına da köklü təsir edəcək...

**Təkcə çap mətbuatı deyil, elektron medianın, eyni zamanda, internet televiziyaların tənzimlənməsində mühüm rol oynayacaq**



"İki sahil" qəzetinin baş redaktoru, Mətbuat Şurasının İdarə Heyətinin üzvü Vüqar Rəhimzadə "Report"a bildirib ki, "Media haqqında" yeni qanun layihəsi çox vacib sənəddir. Onun sözlərinə görə, bu qanun Azərbaycanda təkcə çap mətbuatı deyil, elektron medianın, eyni zamanda, internet televiziyaların tənzimlənməsində mühüm rol oynayacaq: "İnformasiya əldə etmək haqqında qanun", "Dövlət sirri haqqında" qanun, "Reklam haqqında" qanun - bütövlükdə bu külliyyat halında bu qanun zəngin Azərbaycan mediasını istiqamətləndirəcək, mediamızın fəaliyyət prinsiplərini müəyyənləşdirəcək".

Çap mediası və onlayn media subyektinin təsis edilməsi üçün dövlət orqanlarından icazə tələb olunmur. "Vətəndaş jurnalistikası" adlandırılan və peşə olaraq deyil, hobbi olaraq həyata keçirilən fəaliyyət bu qanunun təsir dairəsinə daxil deyil. Necə ki, hər hüquqşünasın vəkil, hər mühazirəçinin müəllim olmadığı kimi.

Qanunda nəzərdə tutulan müddəalar informasiya mühitinin millliləşdirilməsini və daxili informasiya məkanının təhlükəsizliyini təmin etməyə, milli məhsul istehsalını stimullaşdırmağa, yerli medianın inkişafına təkan verməyə, nəticə etibarilə Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına daha geniş şərait yaradacaq.

Mütəxəssislər hesab edirlər ki, "Media haqqında" qanun layihəsi dövlət-media münasibətlərində əsas elementlərdən biri kimi hüquqi mənzərənin dəqiqləşməsinə öz töhfəsini verəcək.

Bir sözlə, Azərbaycan mediasının inkişafında maraqlı olan dövlətin bu addımı onu deməyə əsas verir ki, 146 yaşlı mətbuatımızın ənənələrini qoruyub saxlamaq və daha da inkişaf etdirmək qarşıya vacib məsələ kimi qoyulub. Yeni "Media haqqında" qanun bu vəzifələrin yerinə yetirilməsinə yol göstərəcək.

### Layihədə internet televiziyaların lisenziya almaq üçün müraciət etməsi məcburi xarakter daşımır

Qanun layihəsində yer alan ən vacib məqam sosial şəbəkələrin və "blogger"lərin fəaliyyətini tənzimləməsidir. Bu sahədə mövcud olan vəziyyət hamıya bəllidir. İllərdir sosial medianın fəaliyyətinin qanunla tənzimlənməsi müzakirə olunurdu və layihədə bu məsələnin yer alması təqdir olunmalıdır. Söhbət ondan gedir ki, bu gün kiminsə YouTube və ya hansısa sosial şəbəkə hesabı üzərindən açdığı internet tv-yə mətbuat kimi yanaşırıqsa, həmin tv-nin fəaliyyəti qanunla tənzimlənməlidir. Müəyyən prosedurların tətbiqi heç də qadağaların tətbiqi kimi yozulmamalıdır və yeni media quruluşlarının fəaliyyətlərinin hansısa formada məhdudlaşdırılması müzakirə predmeti deyil. İnternetin azad olduğu bir məkanda bunu etməyin mümkünsüzlüyünü hamımız anlayırıq. Təkcə onu vurğulamaq yetərlidir ki, qanun layihəsində internet televiziyaların lisenziya almaq üçün müraciət etməsi məcburi xarakter daşımır. Sadə dildə desək, lisenziya almayan internet televiziyalar öz fəaliyyətlərini maneəsiz davam etdirə biləcəklər.

Göründüyü kimi, yeni qanun layihəsi medianın bütü istiqamətləri ilə yanaşı, həm də informasiya və kommunikasiya texnologiyalarının fəaliyyətinin inkişafı üçün çox münbit şərait yaratmış olacaq.

*Məhəmmədəli QƏRİBLİ*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**